# *Goranboy*: pambıq tarlalarında məhsul bol, işin sürəti yüksəkdir

***❒ … Goranboy rayonu, Qırıqlı kəndi, Füzuli Bağırovun rəhbərlik etdiyi fermer təsərrüfatının pambıq sahələri. Geniş torpaq yolun kənarı ilə düzülmüş dolu bardanlar günün yüksək nəticələrindən xəbər verir. Elə buradaca – söyüd ağacları ilə əhatə olunmuş kiçik meydançada təşkil edilmiş yığıncaq da günün nəticələrinə həsr olunub. Məsələ burasındadır ki, yığım başlanandan hər gün nəticələr araşdırılır, təhlil olunur və qaliblərin adları qeyd edilməklə, onlara müvafiq mükafatlar təqdim olunur.***



Bu günün qalibi isə Füzuli Bağırovdur. O, hələlik rayon üzrə ən yüksək nəticə əldə etmişdir – hər hektardan 50 sentner. Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev qabaqcıl fermeri qazandığı yüksək göstəricilərə görə təbrik etdi, ona daha böyük uğurlar arzuladı və hədiyyələri təqdim etdi.

Füzuli Bağırov isə məhsul yığımını qısa müddətdə başa çatdıracağına, eyni zamanda, gələn il əkin sahələrini ən azı iki dəfə artıracağına söz verdi.

Cəmi 5-10 dəqiqə çəkən bu yığıncaqdan sonra imkan tapıb icra başçısı ilə ayaqüstü söhbət etdik.

– Bilirsinizmi, belə tədbirlərin çox böyük mənəvi-psixoloji əhəmiyyəti var, – dedi. – Axı, insanı ruhlandıran diqqət, qayğı və əməyinə verilən qiymətdir. Bu mənada keçirdiyimiz belə tədbirlərin böyük səfərbəredici gücü var.

Məsələnin digər, ən vacib cəhəti isə ondan ibarətdir ki, ölkə Prezidenti cənab İlham Əliyev bütün sahələri, o cümlədən mühüm strateji məhsul olan pambıqçılığı, onun sürətli



inkişafını diqqət mərkəzində saxladı, bu istiqamətdə bir sıra mühüm dövlət sənədləri qəbul olundu, konkret addımlar atıldı. Yerlərdə işin təşkili isə məhz bizdən asılıdır. Başqa sözlə desək, adamlarla aparılan iş, onlara göstərilən diqqət olduqca vacibdir.

İcra başçısı ilə xüdahafizləşirik. Bilirdim ki, o, Xanqərvənd, Qızılhacılı, Nərimanlı kəndlərində də günün qalibləri ilə görüşlər keçirəcək. İşin məhz bu cür – yaradıcı və dinamik təşkil olunmasının, adamlarla aparılan gündəlik tədbirlərin nəticəsidir ki, ötən ilin eyni dövrü ilə müqayisədə rayon üzrə xeyli çox pambıq təhvil verilmişdir. Bu günə kimi pambıq tarlalarından 2 min 200 tondan çox məhsul yığılmışdır.

Pambıq əkini sahələrini gəzdikcə, iş üstündə olan fermerlərlə, kənd adamları ilə görüşüb söhbət etdikcə, bir daha əmin olduq ki, bu il tarlalarda bol məhsul yetişdirilib. Şum, səpin və becərmə tədbirləri vaxtında və keyfiyyətlə aparılıb.

Yığıma da həmişəkindən tez başlanılıb. Ümumiyyətlə, cari ildə rayon üzrə 5 min hektarda pambıq yetişdirilmişdir. Yığım sürəti, yerlərdə işin düzgün təşkili onu göstərir ki, nəzərdə tutulduğundan çox məhsul



götürüləcəkdir.

Rayonda 3 pambıq qəbulu və emalı müəssisəsi fəaliyyət göstərir – "MKT-İK" MMC-nin Goranboy filialı, "Azər-Pambıq" İstehsal Birliyi rayon pambıq istehsalı və tədarükü məntəqəsi, "Goran-Kotton" MMC.

Həmin müəssisələrdən birinin "MKT-İK"-nın rayon filialının direktoru Vaqif Məmmədovla Boluslu kəndinə gedirik. Bildirir ki, bu il emal müəssisəsi 1177 hektarda pambıq əkən 204 fermerlə müqavilə bağlayıb. İndiyə kimi gübrə, yanacaq, maşın-mexanizm sarıdan heç bir narazılıq olmayıb. Pambıqyığan kombaynlar da kifayət qədərdir. Düzdür, hələlik kütləvi şəkildə maşınla yığıma başlanmayıb. Bu gün-sabah "dəmir atlar" sahələrə çıxacaqdır.

Bura Arifə Tapdıqovanın başçılıq etdiyi fermer təsərrüfatının pambıq sahələridir. İndiyə kimi yetişdirilmiş məhsulun, demək olar ki, yarısı toplanılıb. Ona görə ki, bu kollektiv yığıma rayonda birincilər sırasında başlayıb. Qabaqcıl fermer sevincini gizlədə bilmir:

– Bu il biz təkcə əkin sahələrini artırmamışıq. Məhsuldarlıq da əvvəlki illərlə müqayisədə artıb. Hələlik 40 sentner təşkil edir. Ancaq ümid edirik ki, bu rəqəmi bir az da artıra biləcəyik. Sahələrdə hələ məhsul çoxdur. Havalar yığım üçün çox əlverişli keçir. Ona görə də ötən hər dəqiqənin qədrini bilir, pambıq yığımını tez və itkisiz başa çatdırmağa çalışırıq.

Yaşar Məmmədov isə Xanqərvənd kəndində yaşayır. Onun başçılıq etdiyi fermer təsərrüfatı 7,5 hektarda bol məhsul yetişdirib. Hazırda yığımın qızğın çağıdır. Söhbət zamanı məlum oldu ki, sahələrin çox hissəsi maşınla yığılacaq. Ona görə də dərmanlama və başqa tədbirlər vaxtında aparılmışdır. Biz orada olarkən pambıqyığan kombaynlar birinci gün idi ki, sahələrə çıxmışdı. Nəticələrlə maraqlandıq. Qabaqcıl fermer qürur və sevinclə bol məhsullu tarlalara baxaraq dedi:

– Hələ ötən əsrin 70–80-ci illərində bizim kənd nəinki rayonda, eləcə də respublikada ən çox pambıq əkən yaşayış məntəqələrindən biri idi. Demək istəyirəm ki, burada pambıqçılığın ənənələri çox qədimdir. Biz bol məhsul yetişdirməyin sirlərini yaxşı bilirik. Onu da deyim ki, bu qiymətli məhsulun gözdən düşdüyü ötən əsrin 90-cı illərində də həvəs və marağımız azalmayıb.

İndi isə gördüyünüz kimi, vəziyyət tamamilə başqadır. Hər yerdə olduğu kimi, bizim kənddə də hamı üzünü pambıqçılığa tutur, əkin sahələri genişləndirilir. Bütün bunlara görə biz kənd əməkçiləri ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk. Başqa kənd təsərrüfatı bitkilərinə, o cümlədən pambıqçılığa göstərilən diqqət və qayğı, sahənin sürətli inkişafı ilə bağlı həyata keçirilən genişmiqyaslı tədbirlər bizə güc verdi. Axı, biz kənd əməkçilərinin dolanışığı, gün-güzəranı bu torpaqdan çıxır. Məhsul nə qədər bol olarsa, qazancımız da bir o qədər çox olar. Ona görə də çalışırıq ki, məhsul itkiyə getməsin.

Qızılhacılı kəndində Həsən Süleymanova ilk sualımız belə oldu:

– Bu il pambıq əkini sahələrini neçə hektar artırmısınız?

– 12 hektar. Ümumiyyətlə, 42 hektarda çiyid səpini aparmışdıq. Gördüyünüz kimi, sahələrdə bol məhsul yetişdirilmişdir. İndiyə kimi, 20 hektarın pambığını yığmışıq. Hektarın məhsuldarlığı isə hələlik 35 sentnerdi. Onu da bildirim ki, biz bu il məhsulun, demək olar ki, hamısını əllə yığmağı qərara almışıq. Sahələrdə hələ əl dəyməmiş



yerlər var, məhsulumuz boldur. Heç şübhəsiz, yaxın günlərdə nəzərdə tutulmuş nəticəni əldə edəcəyik. Aylarla çəkdiyimiz zəhmət də hədər getmir, bizə bol qazanc, xoş güzəran gətirir. Belə ki, yığılan pambığın pulu elə həmin gün ödənilir. Bu isə, aydın məsələdir ki, kənd əməkçilərinin həvəs və marağını daha da artırır. Elə bu səbəbdən də fermer təsərrüfatımızın üzvləri qərara alıblar ki, gələn il pambıq əkini sahələrini daha da genişləndirsinlər.

Kəndlər, pambıq tarlaları bir-birini əvəz edir. Biz Həsən Süleymanovun, Aqil Əsgərovun, Mustafa Pirimovun, Elbrus Qurbanovun, Etibar Həmidovun başçılıq etdikləri fermer təsərrüfatlarının pambıq sahələrində də olduq. Ağ örpəyə bürünmüş tarlalar adamın üzünə gülür, bol məhsuldan xəbər verir. Sahələrdə kifayət qədər işçi qüvvəsi çalışır, maşın-mexanizm saz vəziyyətdədir.

Rayon icra hakimiyyətində yaradılmış operativ qərargahın üzvləri gecə-gündüz iş üstündədir – gündəlik nəticələr təhlil edilir, müqayisələr aparılır, sahələrdə gündəlik görüləcək işlər dəqiqləşdirilir. Əsas diqqət ona yönəldilmişdir ki, nə qədər havalar əlverişli keçir, məhsul yığımı nəzərdə tutulmuş müddətdə, tez və itkisiz başa çatdırılsın.

Ümumiyyətlə, Goranboy rayonunda cari ili digər kənd təsərrüfatı məhsulları sahəsində də yaxşı göstəricilərlə yekunlaşdırırlar. Məsələn, 18 min 774 hektarda taxıl, o cümlədən 7 min 6 hektarda buğda, 12 min 148 hektarda arpa səpilmişdir. Aqrolizinq ASC-nin rayon nümayəndəliyinin yarıtmaz fəaliyyəti nəticəsində biçin zamanı kombayn çatışmaması ciddi narahatlıq yaratsa da, hər hektarın məhsuldarlığı 30 sentner olmuşdur. 9,8 ton barama istehsal edilmişdir.

Goranboy və Samux rayonlarının inzibati ərazisində yerləşən "Boz dağ" massivində yaradılmış "Region Aqroparkı" fəaliyyətə başlamışdır. Bura Şəmkir maşın kanalından 12,1 kilometr su kəməri çəkilmiş, su anbarları inşa edilmiş, müasir suvarma sistemləri quraşdırılmışdır. 14 kilometr yüksək gərginlikli elektrik xətti çəkilmiş, transformator istifadəyə verilmişdir. 12 kilometrlik qaz xəttinin çəkilməsi yekunlaşmaq üzrədir. İnzibati və yardımçı binaların tikintisi aparılır. Burada, həmçinin şəkər çuğunduru, texniki bitkilər əkiləcək, emal müəssisələri, soyuducu anbarlar inşa ediləcək və 500 yeni iş yeri yaradılacaqdır. Hazırda Aqroparkda 100 nəfər daimi işlə təmin edilmişdir.

Ötən il Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC rəhbərliyinin köməyi ilə Şəmkir maşın kanalı vasitəsilə Dəliməmmədli şəhəri ərazisinə suvarma suyu verildi. Kanalın altında yerləşən 8 kəndin suvarma suyuna olan ehtiyacı, əsasən, təmin edildi. Bu il isə kanalın Nadirkənd kəndinədək 7 kilometr hissəsi istifadəyə veriləcəkdir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 16 yaşayış məntəqəsində 19 subartezian quyusu qazılacaqdır. Suvarma suyu məhdud olan bir rayon üçün bu, çox böyük əhəmiyyət kəsb edəcəkdir.

Göründüyü kimi, son illər Goranboy rayonunda kənd təsərrüfatı məhsulları istehsalı dinamik xətlə inkişaf edir, ardıcıl və sistemli xarakter daşıyır. Aparılan araşdırmalar, rəqəm və göstəricilərin müqayisəli təhlili göstərir ki, hələ istifadə edilməmiş və ehtiyat mənbələri kifayət qədərdir. Heç şübhəsiz ki, göstərilən dövlət qayğısı, bu istiqamətdə atılan konkret addımlar, imzalanan fərman və sərəncamlar, yerində işin düzgün təşkili bu bölgənin iqtisadiyyatını xeyli gücləndirəcəkdir. Deməli, daha böyük uğurlar hələ qabaqdadır.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***